Türküstan №7 17 - 23 fevral 2026-cı il



# Sükut rəngində işıq

## Giya Paçxataşvili – 65



**Qiymət Məhərrəmli**

**(ardı gələn sayımızda)**

***...Onun özü barəsində yazdığı, bir yaradıcı ziyalı kimi xarakterik xüsusiyyətlərini özündə əks etdirən, taleyin amansız zərbələri ilə üz-üzə qalmış duyğulu ürək sahibinin portreti onun bütün həyat hekayətlərinin əks olunduğu ömür dastanı şəklində ortaya çıxır. Bax, budur şairin əsil portreti – avtoportreti!..***

"Avtoportret" adlı şeirdə şair:

Evsizlik evimi yıxdı,
Kasıb taleyim darıxdı.
Ay karıxdı, il duruxdu,
Baxtım öldü – dirçəlmədi... – deyə acı taleyinin portretini çəkməyə çalışmışsa da, görünən həqiqət budur ki, "Mənim 35 yaşım", "Mən vətəndaş-şairəm", "Yox-yox", "Tələbə yataqxanası", "Uşaqlığımın kiçicik məmləkəti" və sair şeirlər bütövlükdə bir avtoportret silsiləsi təşkil edir.

Və... təkrar da olsa, bir daha qeyd edim ki, Givinin bütövlükdə yaradıcılığı onun avtoportretidir.

### Aşiq Givi

Aşiq Givi sevimli Lamarasının ölümünə ölümsüz şeirlər yazdı. Xanımının müqəddəs ruhuna ithaf olunmuş "Son – Əvvələ gedən yol"da bu şeirlərin çox az qismi toplanıb. Lakin bu, bütöv bir Lamarasızlıq epoxasının giriş qapısı ağzında donub qalmış "buz heykəl"in – Givinin könül hıçqırtılarından ibarət sevgi dastanıdır: "Giya-lamara dastanı"!

Bu gün isə nə yaxşı ki, dillərdə əzbər olan "Giya-xatirə" dastanı yaranıb və bu dastanın Bizim Givini necə qanadlandırdığına, necə sevimli etdiyinə tək mən yox, əzizləri yox, onu sevən Allahın özü də şahidlik eyləyir sevə-sevə...

### Aşıq Givi

***... Və... elə bu yerdə... aşiqliyi yarasına məlhəm ola bilməyəndə, nə yaxşı ki, "aşıqlığı" dadına çatır Givinin. Saz çalmağı bacarmasa da, saza-sözə köklənmiş ozan ürəyi, dərviş ürəyi hər zaman sükut səsiylə pəsdən-pəsdən oxuyur, barmaqları ürəyini elə sazın təzənəsi kimi, mizrabı kimi dilləndirir Ozan Givinin, Aşıq Givinin... Telləndirir Givinin ürəyini bu sazın həzindən-həzin, kövrəkdən-kövrək simlərindən qopan munis tərənələr...***

Borçalının Birinci Kosalı kəndinin el ağsaqqalı Hacımahmud kişinin qonağı olarkən, ev sahibinin sinəsinə sıxdığı sazı aşıq sehrli barmaqlarıyla, şairsə öz ürəyinin məhrəm duyğularıyla dilləndirib sanki

Və "Hacımahmud saz çalır!" şeiri yaranıb!

Ozan-aşıq sənətinə sevgisi təkcə bu qəbildən olan şeirləriylə məhdudlaşmır, şair-publisistin bu sahənin ustadlarına həsr olunmuş neçə-neçə yazısı, bir-birindən maraqlı müsahibələri də oxucuların yaxşı yadındadır. Aşıq sənətinə müasir baxışın ən orijinal nümunəsi olan "Ustad şapalağı" adlı möhtəşəm yazısında ustad-şəyird münasibətlərindən söz açarkən tədqiqatçı xüsusi vurğulamışdır ki, yaxın keçmişlərə qədər ustad aşıq öz şəyirdindən razılıq əlaməti olaraq ona solaxay bir şapalaq ilişdirərdi ki, bu da onun öz yetirməsinə verdiyi xeyir-dua sayılardı. Yəni, bu o anlamı ifadə edərdi ki, şəyird öz ustadından aşıqlığa gərək olan ən mühün xüsusiyyətləri əxz edə bilib. Şübhəsiz ki, Givinin bu sahəyə olan tükənməz sevgisi mərhum şair Fikrət Mursaqulovla olan sarsılmaz dostluğundan keçir. Azərbaycan dilinə, mədəniyyətinə və incəsənətinə, xüsusilə də ozan-aşıq yaradıcılığına qəlbində yaranan sevginin alovlanmasında artıq qeyd etdiyimiz kimi, Fikrət Mursaqulovun və onun çevrəsində olan ziyalı insanların – Mürsəl Həkimovun, Knyaz Aslanın, Kövrək Muradın danılmaz rolu olub. Dostumuz Givi bu yolda ona qədirdanlıq göstərmiş bu insanları həmişə ehtiramla xatırlamaqdadır.

Aşıq Kamandarın, Aşıq Məhəmməd Sadaxlının, şair Akif Səmədin, Məmməd Dəmirçioğlunun və digər ustadların sənətkarlıq xüsusiyyətlərindən bəhs edən yazıları da Giya Paçxataşvilinin Borçalı və ümumilikdə, Azərbaycan ozan-aşıq sənətinə və poeziyasına olan sonsuz sevgisinin təcəssümü kimi özünü göstərir.

Giya Paçxataşvilinin Azərbaycan ədəbiyyatına və mədəniyyətinə bəslədiyi sonsuz sevgiyə ehtiram əlaməti kimi, Gürcüstan Aşıqlar Birliyinin sədri, şair Dərviş Osman Əhmədoğlu, yazıçı-pedaqoq Əli Abbas, alim-şair Knyaz Aslan, şair-publisist Həzi Həsənli, şairlərdən Mədəd Coşqun, İradə Kövrək, Vaqif Aslan, Rəsul İlmədinoğlu və başqalarının ona həsr etdikləri şeirlər böyük maraq doğurur. Həmin ithafların ən mükəmməli sayıla biləcək "Siz sevin, Giyanı, sevin, insanlar!" (Dərviş Osman) dostumuz Giviyə ümumtürk sevgisinin təzahürü, eyni zamanda bu dəyərli ruh və qələm sahibini daim ehtiramla anmağa bir çağırışdır:

### Uşaq Givi

Dostum Givinin "Yox-yox!" şeirini çox sevirəm. Hər dəfə də göz yaşları içərisində oxuyuram onu. "Sükutun rəngləri"ndən bir yarpaqdı "Yox-yox". Bu şeirdə Givi özünü yazıb, bəxtsiz taleyinin acı üzünü yazıb, həm də düzünü yazıb. Özü kimi yazıb, düz kimi yazıb, amma bir az nağılvari yazıb.

***Çox təmizdi, çox safdı Givi. Dəcəl uşaqlar kimi... Küsüb-incidiyi adamlardan gen qaçdığı kimi, ürəkdən bağlandığı dostlara sədaqətli olmağı ilə də çoxundan fərqlidir bu uşaq dostumuz. Hamıya inanır, hər kəsə bel bağlayır. Bel bağladıqlarının, güvəndiklərinin əksəriyyətindən üzüdönüklük, saygısızlıq görsə belə, yenə uşaq saflığından, uşaq inadcıllığından qalmır. Təmənnalıların əhatəsində olmağıyla hərdən səbrini daşdırsa da, yenə uşaqlığını eləyir bizim 55 yaşlı uşaq dostumuz.***

Hərdən düşünürəm ki, görəsən, dostumuz Givi gündəlik həyatda hər dəfə insanların təəccüblü baxışları ilə qarşılaşanda bircə yol da olsun düşünübmü ki, kaş bu adamlar qarşılarındakı şəxsin kimliyini bilə, onun insanlığın hansı mərtəbəsində bərqərar olduğundan xəbərdar olmuş olaydılar. Həmin andaca da özüm-öz sualımı cavablandırıram: "Əsla!" Çünki dostum, qardaşım Givinin iç dünyasına yaxşı bələdəm. Bilirəm ki, sadəlövhcəsinə sadə olan bu insanın qəlbinə mənəm-mənəmlik adlı bir hiss heç zaman yol tapa bilməz. Ən azından o özü belə bir naqis duyğunu iç dünyasına yaxın buraxmaz.

Duyumludu... həssasdı. Dumanlıdı... həssasdı. Davamlıdı... həssasdı Givi. Bu duyumluluqla, bu dumanlılıqla, bu davamlılıqla nə zamanacan davam gətirəcəyini heç özü də bilmir. Ən azından ona görə ki, dostluqda duyumlu insanlarla az rastlaşıb. Dumanlıdı, çünki sabahkı günündə daha hansı "sürprizlər"lə qarşılaşacağından "nəyirand"ı. Bütün bunlara baxmayaraq, davamlıdı Givi, sabitqədəmdi. Uşaq kimi, elədiyini bir də edir, bilə-bilə ki qarşıda onu nə gözləyir, özünü oda atır, sonra da sustalıb qolları yanına düşür.

Doğrudan da, uşaq kimidi Givi... Bapbalaca uşaq kimi. İnciyə, Mehrinə, Duyğuya, Onura, Tuncaya "Şaxta Baba"lıq eləmək üçün hansı "oyunlara girmir" ki?! Novruz tonqalının üstündən hoppananda əsil uşaqlıq sifətinə qayıdır... Bağçamızdakı çiyələkləri, albalıları öz əliylə dərib körpə fidanlara yedirtməkdən ötrü ürəyi gedir. Deyir, İnci mənim nəvəmə çox bənzəyir. Sözlərində böyük həqiqət var Givinin. Bir dəfə nəvəsinin telefonla çəkdiyi şəklini göstərəndə həqiqətən mat qaldım: nəvələrimiz doğrudan da, elə bil əkiz taylarıydı. Allah bəxtiyarlardan eləsin bu körpələri. Uşaq Givimizin uşaq nəvələrini!...

Hərdən mənə elə gəlir ki, Givi "adam kimi" uşaqlığını yaşamadığı üçün elə uşaq olaraq qalmaq istəyib və Tanrı da onun elə uşaq xislətli olaraq qalmağını məsləhət bilib. Şükür məsləhətinə...

Mən onun ANA-sını tanımırdım. Vaxtında tanısaydım, çox güman ki, Bizim Uşaq Giviyə analıq edib-etməməsindən, ana qayğısı göstərib-göstərməməsindən asılı olmayaraq, yaşanmışları bircə anlıq da olsa unudub, dünyaya "Giya Paçxataşvili" adlı möcüzəni bəxş etdiyi üçün səcdəsinə durar, əllərindən öpərdim...

### İşıq Givi

***Əslində, Givi "Sükutun rəngləri"ndə öz işığını axtarır, çünki dostumuzun yaratdığı sükutun rəngləri əslində onun öz işığıdı.***

***Və... Dostum Givinin işıqlı dünyasına üz tutub müqəddəs eşqinə səcdə edənlərə ünvanladığım kiçik yazıma bu yerdə hələlik nöqtə qoyuram...***

***Ömrün uzun, canın sağ, hüzurun daimi olsun, Bizim Givi!***

